# Qəbələdə sosial-iqtisadi inkişafın yeni üfüqləri

## Rayon icra hakimiyyətində keçirilən geniş müşavirədə çıxışlar:

### *Fəttah HEYDƏROV, Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədri, millət vəkili.*

(Əvvəli 2-ci səhifədə).



**Əziz dostlar!**

**Hörmətli qəbələlilər!**

Ötən hər ilin insan həyatında müəyyən izləri qalır. Bizim üçün arxada qalan 2016-cı il ilk növbədə müstəqilliyimizin 25 illik yubileyi kimi yadda qaldı. Bu müddət ərzində Azərbaycan qarşısına çıxan çətinlikləri dəf edərək əsrə bərabər bir inktşaf yolu keçmişdir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan müstəqil Azərbaycan dövləti tarixi nailiyyətlərə imza atmış, dünya birliyində öz layiqli yerini tutmuşdur.

Əziz dostlar, 2016-cı il heç də asan bir il olmamışdır. Dünya iqtisadiyyatında dərinləşən böhran, neft gəlirlərinin kəskin şəkildə azalması ölkəmizin iqtisadiyyatına təsirsiz ötüşmədi. Lakin möhtərəm Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi qabaqlayıcı tədbirlər sayəsində ötən il uğurla yekunlaşdı. 2016-cı ili ictimai-siyasi sabitlik, əmin-amanlıq şəraitində başa vurduq.

Ötən il həm də dərin islahatlar ili kimi tariximizdə özünə yer tapıb.

Ölkə başçısının əsas məqsədi iqtisadiyyatımızın neft gəlirlərindən asılılığını azaltmaqdır. Vaxtilə cənab İlham Əliyev tərəfindən həyata keçirilən hərtərəfli işlər nəticəsində qeyri-neft sektoru öz dinamik inkişafını davam etdirməkdədir. Yaranan yeni iqtisadi şəraitə uyğun olaraq hazırlanan və həyata keçirilməsinə başlanılan strateji Yol Xəritəsi bundan sonra qeyri-neft sektorunun, xüsusilə kənd təsərrüfatının sürətli inkişafına zəmin yaradacaqdır. Dövlətimizin bu sahədəki hədəfləri regionların həyatına yeni ruh gətirəcək, əhalimiz daha çox gəlir əldə etməyə nail olacaqdır. Artıq ənənəvi təsərrüfat sahələrində illərlə yaşanan tənəzzül dövrü arxada qalır. Azərbaycan kəndi yeni inkişaf mərhələsinə qədəm qoyur. Sevinirəm ki, qəbələlilər başlanılan yeniləşmədə, ixracyönümlü məhsulların istehsalında həmişəki kimi öz gözəl işləri ilə fərqlənirlər. Ötən il rayonda fındıqçılığın, baramaçılığın, tütünçülüyün yenidən dirçəldilməsi istiqamətində önəmli addımlar atılmışdır.

2016-cı ildə qazandığınız nailiyyətlərə görə hər birinizi təbrik edirəm. İnanıram ki, Sizin üçün 2017-ci il də hər cəhətdən uğurlu, yaddaqalan bir il olacaqdır.

### *Rüfət Əliyev, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi.*



**Hörmətli müşavirə iştirakçıları!**

**Xanımlar və cənablar!**

Azərbaycan Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ölkə başçısı 2016-cı ilin ölkəmizin tarixində dərin iqtisadi islahatlar dövrü kimi qalacağını vurğuladı, qəbul edilən qərarlar nəticəsində bundan sonra da qeyri-neft sektorunun inkişafının diqqət mərkəzində olacağını qeyd etdi. Təsadüfi deyil ki, keçən il neftin qiymətinin 3-4 dəfə aşağı düşməsi nəticəsində ümumi daxili məhsul azalsa da, qeyri-neft sənayesində 5, kənd təsərrüfatında isə 2,6 faiz artım əldə olunub.

Dövlət başçısı bildirdi ki, ötən il sosial məsələlərin həlli də diqqət mərkəzində olub. Maaşlar 7, pensiyalar 8 faiz artıb və yenə də artmalıdır. Bununla yanaşı, kommunal xidmətlərin diferensiallaşdırılması da sosial ədalət prinsipinə əsaslanıb, aztəminatlı və orta təbəqənin maraqları nəzərə alınıb. Sosial siyasətin tərkib hissəsi kimi 485 məktəb təmir olunub, 29 yeni məktəb tikilib, 41 tibb müəssisəsi tikilib və ya təmir edilib.

Prezident cənab İlham Əliyev yekun nitqində inşaat sektorunun canlandırılması ilə bağlı bir çox tədbirlərin həyata keçirildiyini dedi, bu prosesin insanların həyat şəraitinin yaxşılaşdırılmasına, Bakının və regionların daha da gözəlləşməsinə, həm də tikinti materialları bazarının stimullaşdırılmasına xidmət etdiyini bildirdi.

Ölkədə infrastrukturun təkmilləşdirilməsi, qazlaşdırılmanın davam etdirilməsi, kənd yollarının tikintisi, içməli su layihələrinin icrası ilə bağlı tapşırıqlarını verən cənab İlham Əliyev hərbi potensialın gücləndirilməsinə dair əlavə tədbirlərin də görüləcəyini bildirdi. Ölkəyə turist axınının stimullaşdırılmasının, "ASAN xidmət"in coğrafiyasının və funksiyalarının genişləndirilməsinin, Ələtdəki Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisinin birinci mərhələsinin tam başa çatdırılmasının diqqət mərkəzində saxlanıldığını vurğuladı.

Cənab İlham Əliyev 2017-ci ildə Bakının bir sıra beynəlxalq tədbirlərə, həmçinin İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edəcəyini dedi.

Dövlətimizin başçısı 2017-ci ili Azərbaycanda "İslam həmrəyliyi ili" elan etdi.

### *Əbdül ƏLİYEV, Qəbələ Regional "ASAN xidmət" Mərkəzinin direktoru.*



**Hörmətli tədbir iştirakçıları!**

Cənab Prezidentimizin respublikamızda sosial-iqtisadi sahədə, o cümlədən dövlət idarəetməsi sahəsində həyata keçirdiyi islahatların tərkib hissəsi olaraq «ASAN xidmət» mərkəzləri yaradılmışdır.

Qəbələ Regional «ASAN xidmət» mərkəzi 20 avqust 2016-cı il tarixdən başlayaraq Qəbələ, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, İsmayıllı, Şamaxı, Qobustan və Ağsu rayonlarında qeydiyyatda olan ümumilikdə 900 mindən artıq vətəndaşa xidmət göstərir.

Mərkəzimiz fəaliyyət göstərdiyi müddət ərzində 58000-dən artıq vətəndaş müraciəti qəbul edilmişdir ki, aparılmış sorğular nəticəsində vətəndaş məmnunluğu 98 faizi üstələmişdir.

Qəbələ və digər ətraf rayonların 350-dən çox gənci könüllü kimi mərkəzimizə müraciət etmişdir. Onlardan 124-ü könüllülük fəaliyyətinə cəlb olunmuşdur. Sevindirici haldır ki, Qəbələ Regional «ASAN xidmət» Mərkəzi vasitəsilə 15-i Qəbələ rayonundan olmaqla 16 könüllümüz müxtəlif müəssisələrdə işlə təmin edilmişdir.

Qəbələ rayonunun, eləcə də digər ətraf rayonların qəsəbə və kəndlərində Qəbələ Regional «ASAN» xidmət» Mərkəzi tərəfindən həyata keçirilən səyyar xidmətdən 1000-dən artıq vətəndaş yararlanmışdır.

Yerlərdə göstərilən xidmət sakinlərin, xüsusilə də ahılların və aztəminatlı ailələrin rəğbətini qazanmışdır. Sakinlərin diqqət və marağını nəzərə alaraq, qeyd edilən xidmətin gələcəkdə də davamlı olaraq həyata keçirilməsi razılaşdırılmışdır.

Həmçinin, digər regionlarda yaşayan sakinlərin Qəbələ Regional «Asan xidmət» Mərkəzinə rahat gediş-gəlişini təmin etmək üçün İsmayıllı və Oğuz rayonlarından həftədə bir dəfə ödənişsiz olaraq ictimai nəqliyyat vasitələri vətəndaşlara xidmət göstərir.

Möhtərəm cənab Prezidentimizin «ASAN xidmət»ə verdiyi xüsusi dəyəri daima rəhbər tutaraq, Qəbələ Regional «ASAN xidmət» Mərkəzi kollektivinin yüksək keyfiyyətli xidmətlər göstərməkdə davam edəcəyinə, dövlət orqanlarının fəaliyyətinə vətəndaşlarımızın inamının daha da güclənəcəyinə inanıram.

### *Təranə SƏLİMOVA, Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun Qəbələ rayon təmsilçisi, şəhər 2 nömrəli məktəbin direktoru.*



**Hörmətli tədbir iştirakçıları!**

Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun xəttilə 2016-cı ildə rayonumuzda bir sıra önəmli, yadda qalan tədbirlər həyata keçirilmişdir.

Ötən il Bilik Fondunun təşkilatçılığı ilə həyata keçirilən ən böyük tədbir–Beynəlxalq Yay Məktəbi də məhz Qəbələdə reallaşdı. Dünyanın müxtəlif ölkələrinin gənclərinin və tanınmış alimlərinin, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun sədri, dövlət müşaviri hörmətli Kamal Abdullayevin şəxsən özünün iştirakı ilə həyata keçirilən bu möhtəşəm layihənin məhz Qəbələdə reallaşması bir qəbələli kimi bizi qürürlandırır. Bu layihə bir daha dünyaya sübut etdi ki, Azərbaycan multikulturalizm sahəsində əldə etdiyi nailiyyətlərlə dünya dövlətlərinə bir nümunədir. Bu dəyərlər bizim üçün birgəyaşayış normasıdır.

Bilik Fondunun «Dünya elmi Azərbaycanda» layihəsi çərçivəsində Rusiyalı tanınmış alim, siyasi analitik Oleq Kuznetsov ötən ilin oktyabr ayında Qəbələ rayonunda olmuş, müəllifi olduğu «XX əsrdə transmilli erməni terrorizmi» kitabının təqdimatını keçirmişdir.

Qürurla deyə bilərəm ki, Azərbaycan Respublikası Təhsil Nazirliyinin multukulturalizm ilinə həsr olunmuş «Milli-mənəvi dəyərlərimiz haqqında düşüncələrim» adlı respublika inşa müsabiqəsində məktəbimizin şagirdi Gültəkin Səfərəliyeva birinci yeri tutmuşdur.

Ümumiyyətlə, 2016-cı ildə Bilik Fondunun xətti ilə Qəbələdə 30 tədbir və 4 videokörpü keçirilmişdir. Tədbirlərin əksəriyyəti Bilik Fondunun təşəbbüsü ilə şəhər 2 nömrəli tam orta məktəbdə reallaşmışdır. Bu da təbiidir çünki Qəbələ şəhər 2 nömrəli tam orta məktəbi 2016-cı ildə 2 qızıl medala sahib olan təhsil müəssisəsi kimi respublika səviyyəli layihələrə ən çox qoşulan tədris ocağıdır.

Məlumat üçün bildirirəm ki, Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunda Qəbələ nümayəndəliyinin multikulturalizm ili çərçivəsində fəaliyyəti yüksək qiymətləndirilmiş, xüsusi diploma layiq görülmüşdür.

### *Oqtay ƏZİZOV, ASPİ-AQRO MMC-nin baş aqronomu.*



**Hörmətli toplantı iştirakçıları!**

Azərbaycanda üzümçülük qədim və ənənəvi kənd təsərrüfatı sahələrindəndir. Ötən əsrin 70-ci illərində ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə kənd təsərrüfatının digər sahələri kimi üzümçülük də sürətlə inkişaf etmiş, illik üzüm istehsalı üç milyon tona çatmışdı. Ancaq əsrin 80-ci illərinin sonunda yenidənqurma dalğası pambıqçılıq, tütünçülük və sair gəlirli sahələr kimi üzümçülüyü də məhv etdi. Ölkəmiz müstəqillik əldə etdikdən sonra üzümçülüyə diqqət yenidən yüksəlməyə başladı. «Üzümçülük və şərabçılıq haqqında» Azərbaycan Respublikasının Qanunu, «2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında

(Ardı 4-cü səhifədə).